# Etnopedaqoji nümunələrdə əxlaq tərbiyəsi məsələləri

**Zenfira İsmayıl qızı Vəliyeva**
*ADPU-nun Məktəbəqədər təhsilin*
*pedaqogikası kafedrasının dosenti*
**E-mail:** zenfira_veliyeva@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** ənənə, tərbiyə, əxlaq, norma, adət, uşaq, keyfiyyət, təfəkkür, vətənpərvərlik
**Ключевые слова:** традиция, воспитание, нравственность, норма, обычай, ребенок, качество, мышление, патриотизм
**Key words:** tradition, upbringing, morality, norm, custom, child, quality, thinking, patriotism

Böyüməkdə olan nəslin hərtərəfli inkişafında hazırki şəraitdə əxlaq tərbiyəsinin əhəmiyyəti və rolu müstəsnadır.

Müasir həyat adamlarımızda yeni keyfiyyətlərin olmasını tələb edir. Əxlaqi davranış normalarının uşaq tərəfindən mənimsənilməsi onun həyatının ilk günlərindən yaşlıların köməyi ilə həyata keçirilir.

Əxlaq tarixən dəyişən kateqoriyadır. Cəmiyyət dəyişdikcə əxlaq normaları da dəyişmişdir. Yəni ibtidai icma quruluşunda bir cür, quldarlıq qurluşunda başqa cür olmuşdur və s. yəni əxlaq normaları təkcə formasiyalarda yox, ayrı-ayrı şahlıqlar, krallıqlar dövründə də dəyişmişdir, lakin ümumbəşəri əxlaqi keyfiyyətlər tarixən özünu qoruyub saxlamışdır.

Əxlaq normalarını xalq yaradıcılığı baxımından təsnif etməli olsaq, belə müəyyənləşdirmək olar:

— İnsanlarm Allaha münasibətini əks etdirən normalardır. Bu normalar dini–səmavi kitablarla, peyğəmbərlərin kəlamları ilə müəyyən edilir.

— İnsanın cəmiyyətə dövlətə olan münasibətlərini əks etdirən əxlaq normalarıdır. Bu normaya–əməyə münasibət, vətənə, doğma yurda məhəbbət kimi keyfiyyətlər şamil edilir.

— İnsanların müxtəlif xalqlara olan münasibətini əks etdirən normalar. Burada ən mühüm keyfiyyət insaniyyət vəədalətlilikdir. İnsaniyyət humanizmlə ədalət mərhəmətliliklə səciyyələnir.

— İnsanların daxili keyfiyyətlərini səciyyələndirən əxlaq normalarıdır. Düzlük, doğruçuluq, böyüklərə, hörmət, insanpərvərlik, humanizm, cəsurluq, mərdlik, nəciblik, və s. kimi əxlaqi keyfiyyətlər bura daxildir.

Bəs insan üçün faydalı olan bu nəcib keyfiyyət-əxlaq nədir?

Bu suala Ə.Həşimov və F.Sadıqovun «Xalq pedaqogikası»nda belə cavab verilir: "Xalq hikməti nümunələrinin elmi təhlilindən aydın olur ki, əxlaq insanın mənəvi, zəruri keyfiyyətlərini, cəmiyyət və başqalarına qarşı münasibətini müəyyən edən normaları, davranış qaydalarını özündə birləşdirir. O ictimai şüurun fomıalanndan biridir".

El arasında çox vaxt ismətli, ədəbli, tərbiyəli kimi sözlərlə ifadə edilmişdir. Nəcib əxlaqlı adamlar haqda belə deyilir: "O əsl adamdır". "İnsan adamdır", "Cins adamdır", "Ədəb-ərkan sahibidir", "Halal süd əmmişdir" və s. kimi xoş kəlamlar eşidilir.

Böyüklərə, yaşlılara hörmət Azərbaycan adət ənənələrində, atalar sözlərində, nağıllarında,

nəsihətlərində möhkəm yer tutur. Azərbaycan ailələlərində hər bir ailə üzvünün öz yeri, öz mövqeyi var. Nurani babaların və nənələrin söylədiyi kimi “Böyüyün böyük yeri var, kiçiyin kiçik yeri var ”, "Ata evin başçısı, ana evin işığı sayılır”, "Ana haqqı tanrı haqqına bərabər tutulur". Uşaqların da ailədə öz yeri var. “Ana südünün halallığından, ana çörəyinin bərəkətindən, ana haqqını ödəməkdən”söhbət açılır. Hətta belə atalar sözümüz də var: “Bu sənə ananın südü qədər halaldır”.

Ana haqqı tanrı haqqı kimidir. Hətta namərd bir iş görəndə deyirlər: “Ananın südü sənə haram olsun”. Peyğəmbərimiz də buyurubdur ki, cənnət ananın ayaqları altındadır.

Qohum,qonşuya hörmət hissi də əxlaqi keyfiyyətdir. “Qohumun yaxşısı yaxşıdır, pisinə qurban olum”, “Yaxın qonşu uzaq qohumdan yaxşıdır”, “Qonşunu iki inəkli bil ki, bəlkə Allah sənə də bir inək verə” kimi atalar sözləri də bunu bir daha sübut edir.

A.Suxomlinski yazırdı: “Nağıl, oyun fantaziya uşaq təfəkkürünün nəcib hiss və istəklərin həyatverici mənbəyidir. Uşaqlar öz fikirlərinin əfsanəvi obrazlar aləmində yaşamasından böyük zövq alır, nağıl sayəsində uşaq dünyanı nəinki ağılla, hətta ürəklə dərk edir”.

Tərbiyədə nümunə əsasən valideyndən götürülür. Bir rəvayətdə deyilir ki, uşaq bir yumurta oğurlayır, anası bundan sevinir. Uşaq bundan sevinir ki, o toyuq oğurlayır. Uşaq böyüdükcə onun oğurluq dairəsi genişlənir. Oğurluqda məşhurlaşan oğlanı bir gün dar ağacına aparırlar. Asılmazdan əvvəl xahiş edir ki, anası ilə görüşməyə icazə versinlər. Anası ilə görüşəndə deyir ki, icazə ver dilindən öpüm. Anası dilini çıxaranda dişi ilə ananın dilini qoparır ki, bu yola sən məni saldın. Mənim qonşunun hinindən gətirdiyim yumurtanın üstündə məni cəzalandırsaydın, tənbeh etsən idin indi mən burda olmaz idim.

Bu deyimlərdə bir həqiqət var ki, böyüklər özləri uşaqlara nümunə olur. Belə nağıllar uşaqlarda cəsarətlilik tərbiyə edir. Yaxud “Göyçək Fatma” nağılını dinləyən uşaqda Fatmaya qarşı bir mərhəmət hissi oyanır,onlarda Fatmaya kömək edən nənəyə,heyvanlara qarşı sevgi hissi artır. Onlar yerində rahat otura bilmirlər. Nağılın sonunda Fatmanın xoşbəxtliyinə sevinir, öz sevinclərini onun sevincinə qatırlar.

Dastanlarda düz – çörək tapdanmaz, “Dədə-Qorqud” dastanının bir boyunda Aruz bəy Beyreyə deyir ki, sən Qazan xandan üz döndər, bizimlə ol. Beyrək deyir:

Mən Qazanın nemətini çox yemişəm
Bilməzsəm gözüm tutsun!
Tarsudla qazlıq atına çox minmişəm
Bilməzsəm tabutum olsun

Bu gün elimizi talayan xain qonşular bizimlə azmı duz-çörək kəsib. Duz-çörək, səadət, xalqımızın əxlaq kodeksidir.

Vətənpərvərlik dastanlarımızda mühüm yer tutur. “Kitabi Dədə-Qorqud" dastanında oğlanlar öz qazandıqları pulla evlənirlər. Bu məsələ “Dədə-Qorqud” dastanında diqqəti daha çox cəlb edir.

Qız anadan görməyincə öyüd almaz
Oğul atadan görməyimə süfrə açmaz.
Bu dünyada vətəndən əziz, doğma eldən qiymətli nə var?
Mərd igidlər dar ayaqda vətəninə dayaq olar.

Azərbaycan xalqının ənənələrindən biri böyüyə hörmət tmək, ağsaqqalı dinləmək, onun

nəsihətlərinə qulaq asmaqdır. Qorqud ata el ağsaqqalıdır. O, elin bütün şənliyində, düyünündə, xoş günündə xalqla olur, onlara məsləhətlər verir. Azərbaycan xalqına mənsub olan böyüyə hörmətin nə qədər dərin köklərə malik olduğunu bu dastanın ayrı-ayrı boylarında görürük. Dədə Qorqud yaxşı qopuz çalır, mahnı qoşur,uşaqlara ad verir. O, qoşduğu mahnılarda həmin şəxsin qəhrəmanlığı ilə yanaşı,dünyanın fani oldugunu, var–dövlət üçün özünü öldürməməyi, düşmənə qarşı amansız olub dostunun qədrini bilməyi məsləhət görür. Vətən həsrəti,vətənə bağlılıq bayatlarımızdada xüsusi yer tutur. Vətəni itirəndə,ondan ayrı düşəndə bayatı deyilir. Bayatıların məzmununda bir kədər, bir həsrət dayanır.

Əzizim dilən gəz
Süsən sünbül dülən gəz
Qürbətdə xan olunca
Vətənində dilən gəz.

Bu bayatılarda qəribçiliyin Azərbaycan xalqı üçün nə qədər ağır olduğu göstərilir. Bayatılarda vətənəbağlılıq, vətənpərvərlik hissi çox güclüdür. Bu da bizim xalqımızın geni ilə bağlıdır. Azərbaycan xalqı elə bir xalqdır ki, onlar yalnız öz vətəninə öz xalqına bağlıdırlar. Vətənpərvərlik hissi bizim xalqda çox güclüdür. Folklor janrlarından olan əfsanələrində uşaqların tərbiyəsində böyük əhəmiyyəti var. Əfsanələr, xüsusilə də heyvanlarla, quşlarla, səma cisimləri ilə, çiçəklərlə, güllərlə bağlıdır. Onlar öz məzmunu və ideyalılığı ilə uşaqları özünə cəlb edir. “Ayın əfsanəsi”ni dinləyən uşaq hər gecə aya baxanda sanki orada həmin uşağıgörür onun haqqında xəyala dalır, yaxud “qaranquş”, “turac”, “xarı – bülbül” və s. haqqında olan əfsanələr məhz uşaqların yaşına uyğun əfsanələrdir.

Öyüd – nəsihətlərin uşaqların əxlaq tərbiyəsində xüsusi yeri var. Öyüdlər söhbət formasında, başqalarından nümunə götürmək yolu ilə, bəzəndə əmr formasında, yasaq və qadağa formasında verilir. Suya tüpürmək, odla oynamaq, yalan danışmaq, heyvanları, quşlaı incitmək olmaz kimi qadağalarla yanaşı “Çörəyi bir əllə kəsməzlər”, “Çörək yerə düşəndə onu öpüb gözünün üstünə qoy”, “Qaynar suyu yerə tökməzlər” kimi yasaqlarda məktəbəqədər yaşlı uşaqlara çatdırılmışdır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində etnopedaqoji nümunələrdən istifadə etmək məqlənin aktuallığını təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik vətəndaş tərbiyəsində etnopedaqoji materiallarıdan bir mənbə kimi istifadə etməkdən ibarətdir.

**Məqalənin nəzəri və praktik əhəmiyyəti.** Məqalədən tərbiyə prosesini həyata keçirən tərbiyəçilər, müəllimlər faydalana bilərlər.

## Ədəbiyyat

1. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1981.
2.Cəbrayılov İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı, 2011.
3. Vəliyev K . Azərbaycan xalq dastanları. Bakı, 1989.
4. Həşimov Ə., Sadıqov F. Xalq pedaqogikası. Bakı, 1996.

**З.И. Велиева**

## Проблемы нравственного воспитания на этнопедагогических примерах


## Резюме

Корни современной азербайджанской морали уходят в глубь веков. Наши сказки, эпосы, легенды и другие этнопедагогические памятники, сохраненные и принесенные нашим народом до наших дней, считаются нашим богатым источником образования.


**Z.I. Valieva**

## Problems of moral education on ethno-pedagogical examples


## Summary

The roots of modern Azerbaijani morality go back centuries. Our fairy tales, epics, legends and other ethnopedagogical monuments, preserved and brought to our people until our days, are considered our rich source of education.


**Redaksiyaya daxil olub:** 20.06.2020